UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.4.266

MAHİZƏR MƏHƏRRƏMOVA*

# MÜASİR AZƏRBAYCAN XALÇALARINDA KONSEPTUALLIQ

*Yeni yaradılmış Azərbaycan xalçaları ənənəvi elementləri müasir formalarla birləşdirərək həm keçmişə sadiqlik göstərir, həm də günümüzün estetik anlayışlarına uyğun şəkildə öz inkişafını davam etdirir. Ənənəvi Azərbaycan xalçaları uzun tarixə malikdir və özündə minilliklər boyunca formalaşmış simvolizm, motivlər və toxuma texnologiyalarını ehtiva edir. Bu xalçalar adətən coğrafi bölgələrə, təbiət elementlərinə, mədəni rəmzlərə və dini mövzulara əsaslanan motivləri nümayiş etdirir. Qarabağ, Quba, Şirvan və Qazax kimi xalçaçılıq mərkəzləri müxtəlif texniki xüsusiyyətləri və ornamentlərlə tanınır. Müasir Azərbaycan xalçaları ənənəvi sənətkarlığa əsaslanan, bununla yanaşı çağdaş dönəmin sənətinin, vizual estetik dəyərlərin, təcrübə və sənətkarlığın çulğalaşdığı bir sahədir. Bu xalçalarda həm qədim ənənələr qorunub saxlanılır, həm də çağdaş dönəmin tələb və çağırışlarına cavab verən konseptual yanaşmalar əks olunur. Bu xalçalarda konseptuallıq bir neçə cəhətdən özünü büruzə verir. Müasir xalçalarda ənənəvi motivlər təzələnir. Bilirik ki, ənənəvi xalçalar motivlərlə, naxışlarla, ornamentlərlə, abstrakt elementlərlə zəngindir. Çağdaş dönəmdə yuxarıda sadaladıqlarımız daha fərqli formalarda, yenilənmiş şəkildə təqdim olunur. Bundan başqa, ənənəvi ipliklərdən başqa, material və texnika yenilikləri də xalça sənətinə tətbiq olunmağa başlayır. Çağdaş dönəmdə xalçalar yalnız estetik bir əşya olmaqla qalmır, həm də bir çox dərin və mənalı məlumatların daşıyıcısına çevrilir. Xalça sənətinə konseptual yanaşma, bu sənətin çağdaş dövrün tələblərinə cavab verməsini və dünya miqyasında tanınmasını təmin edir.*

***Açar sözlər:*** *xalça, bəzək, element, ənənəvilik, konseptuallıq və s.*

## Giriş

Müasir Azərbaycan xalçalarında ənənəvilik və müasirlik konseptuallıq bir-birinə inteqrasiya edərək həm bu sənətin keçmişinə hörmət, həm də yeni dövrün estetik tələblərinə cavab verir. Ənənəvi Azərbaycan xalçaları minilliklər boyu formalaşmış simvolizm, motivlər və toxuma texnologiyaları ilə zəngin bir mirasa malikdir. Bu xalçalar adətən coğrafi bölgəyə, təbiət elementlərinə, mədəni rəmzlərə və dini mövzulara əsaslanan motivləri əks etdirir. Qarabağ, Quba, Şirvan, Qazax kimi xalçaçılıq mərkəzləri müxtəlif texniki xüsusiyyətləri, ornamental, bəzək elementləri ilə tanınır.

Müasir xalçaçılıqda isə ənənəvilik bu tarixi mirasa bağlı olaraq davam etdirilir, lakin eyni zamanda konseptual yanaşmalarla zənginləşdirilir. Rəssamlar xalçalarda ənənəvi motivləri qoruyub saxlayaraq, bəzən də onları minimalizm, abstrakt formalarla və müasir simvolizmlə birləşdirirlər. Bu yanaşma xalçaların yüksək bədii ifadə vasitəsi kimi təqdim edilir.

## Əsas təhlil

Müasir xalçalarda hələ də klassik Azərbaycan xalçalarının əsas elementləri qorunur: bitki naxışları, heyvan motivləri və həndəsi formalar. Təbiətdən ilham alan naxışlar (məsələn, həyat ağacı, su motivləri), tarixi simvolizm (butalar, güllər) saxlanılır və bu elementlər vasitəsilə milli kimlik vurğulanır. Misal üçün, Günay Qasımxanlının “Azəri” adlı xalçasını müasir nümunə kimi göstərmək olar. Burada əsasən həyat ağacı motivinin ön planda olması maraq doğurur. Mərkəzi kompozisiyada həyat ağacı simvolunu vurğulayan elementləri əks etdirir. Həyat ağacı simvolu çox vaxt xalçalarda əsas rəmz kimi çıxış edir, həyatın davamlılığını, böyüməni və inkişafı təmsil edir. Bu xalçanın mərkəzində yerləşdirilmiş iri yarpaq və ya qıvrım ləçəklər həyat ağacının rəmzi kimi çıxış edir. Yaşıl və qızılı rənglərin istifadəsi təbiətin və bitki örtüyünün zənginliyini simvolizə edir. Bu forma həyatın enerjisini, dövr edən təbiət hadisələrinə və yenilənməyə də işarə edir. Mərkəzi elementin ətrafında yer alan spiral formalı nəbati motivlər həyat ağacının budaqları kimi təsvir olunmiuşdur. Spiral formalar zamanın axıcılığını və təbiətin davamlı dövr etməsini simvollaşdırır. Bu motivlər həm də həyatın müxtəlif dövrlərini və inkişaf mərhələlərini işarə edir. Xalçadakı qıvrım naxışların bir-biri ilə əlaqəli şəkildə təsvir edilməsi səma və torpaq arasında tarazlıq yaratmaq məqsədi güdür. Ümumiyyətlə, həyat ağacı Azərbaycanın xalça ənənələrində tez-tez rast gəlinən bir rəmzdir. Buradakı kompozisiya da həyat ağacının köklərinin yerə bağlı olduğu, budaqlarının isə səmaya uzandığı ideyasını təcəssüm etdirir. Şəkəri, sürməyi, yaşıl və qızılı rənglərin dominant olduğu rəng palitrası xalçada təbiətə olan yaxınlığı vurğulayır. Yaşıl rəng həyat

ağacını simvolizə edən əsas rəngdir və təbiətin canlılığını əks etdirir. Açıq və tünd tonların kombinasiyası isə xalçanın zərifliyini və rəng harmoniyasını gücləndirir.

Xalçanın sol və sağ tərəfləri tamamilə simmetrik şəkildə qurulub, bu da harmoniya və tarazlıq ideyasını gücləndirir. Bu xalçada həyat ağacı simvolu əsas mövzu kimi mərkəzdə vurğulanır və naxışların nizamlı, spiral formaları ilə həyati dövrlərin, inkişafın və davamlılığın vacibliyini əks etdirir. Xalçanın rəng seçimləri və simmetrik quruluşu, həm ənənəvi, həm də modern elementləri birləşdirərək, Azərbaycanın mədəni irsinin müasir ifadəsini təqdim edir.

Müasir xalçalarda ənənəvi rəng palitrasının da qorunması nüansı müşahidə olunmaqdadır. Təbii boyalarla rənglənən qədim Azərbaycan xalçalarında əsasən qırmızı, mavi, yaşıl və sarı rənglər üstünlük təşkil edirdi. Müasir xalçalarda da bu rənglərin qorunub saxlanması, lakin bəzən daha zəngin və müxtəlif rəng çalarları ilə təkmilləşməsi diqqəti cəlb edən xüsusiyyətlərdən biridir. Məsələn, Zahidə Haşımovanın özünün simmetrik qanunlara əsasən, daha çox həndəsi elementlərlə diqqəti cəlb edən "Fauna" adlı xalçanın dolğun, parlaq rəng həlli ilə diqqəti cəlb etməsi birmənalıdır. Qeyd olunan xalçanın rəng həlli, ənənəvi Azərbaycan xalçalarına xas olan rəng və naxış istifadəsinin müasir interpretasiyasıdır. Belə ki, mərkəzdən başlayaraq tünd göy, qırmızı, qızılı və noxudu rənglər əsas rəng palitrasını təşkil edir (1, 27). Göy rəng mərkəzi bölgədə dominantdır və xalçanın ümumi sakit və stabil bir təsir yaratmasına kömək edir. Bildiyimiz kimi bu rəng tonu tez-tez ənənəvi xalçalarda səma və mənəvi dərinlik simvolu kimi çıxış edir. Qədim Azərbaycan xalçalarında da qırmızı, göy, yaşıl və sarı tonlardan çox istifadə edilmişdir. Qırmızı rəng güc, canlılıq və mübarizə anlamını, mavi rəng isə sükunət və harmoniya anlamını verir. Sarı və noxudu rənglər isə xalçada vurğuları artırmaq üçün istifadə olunurdu. Fauna xalçasında rənglərin parlaq və tünd çalarları arasında ahəngli bir keçid var. Qırmızı və göy tonların bir-biri ilə harmoniyası güclü kontrast yaradır, lakin qızılı və noxudu rənglər bu kontrastı balanslaşdıraraq harmoniya yaratmışdır.

Azərbaycan xalçaları əsasən təbiətdən ilhamlanan rəngləri ilə tanınır. Yaşıl və göy təbiətin sakitliyini, qırmızı və narıncı kimi rənglər isə enerjini və hərəkəti təmsil edir. Ənənəvi xalçalarda da bu rənglər arasında balanslı keçidlər olur, lakin bəzi bölgələrdə, xüsusilə Quba və Şirvanda rənglər daha parlaq şəkildə ifadə edilir. "Fauna" adlı xalça nümunəsinin də rəngləri müxtəlif naxışlar və simvollarla ahəng içindədir. Hər bir zolaq fərqli çalarda və motivdə işlənmişdir ki, bu da xalçaya çox qatlı və mürəkkəb bir görünüş verir. Naxışların və rənglərin simmetrik yerləşdirilməsi, xalçanın hər iki tərəfinin balanslı görünməsini təmin edir. Nümunədə göy və qırmızı rənglərə xüsusi yer verilib. Göy rəng təbiətin sükunətini, qırmızı isə heyvanların və təbiət elementlərinin gücünü simvolizə edə bilər. Bu xalçadakı rənglərin cəsarətli istifadəsi, adından da bəlli olduğu kimi, təbiətin müxtəlif canlılarını və onların enerjisini ifadə edir.

Ənənəvi xalça toxuma üsulları, yəni əl ilə toxuma texnikası, müasir xalçalarda da geniş istifadə olunur. Bu texnika, xalçanın keyfiyyətini və davamlılığını artırır. Xalçaların toxunmasında istifadə olunan materiallar (yun, ipək və pambıq) da ənənəvi olaraq seçilir və eyni üsullarla işlənir.

Azərbaycan xalçaları müxtəlif bölgələrin özünəməxsus üslubları ilə tanınır. Məsələn, Qarabağ xalçaları canlı rəngləri və iri naxışları ilə seçilir, Quba xalçaları isə daha incə və detallı naxışları ilə tanınır. Müasir dövrdə bu üslublar qorunur və xalçaçılar bu regional üslublara sadiq qalaraq yeniliklər əlavə edirlər. Qeyd olunanlara parlaq misal olaraq istedadlı rəssam Zəhra Əliyevanın müasir Azərbaycan xalça sənətinin inkişafında xüsusi yerə malik olan xalça nümunələrini göstərmək olar. Bunlardan Qazax qrupunun elementləri əsasında həyata keçirilmiş "Quşlu" yaradıcılıq nümunəsi də maraq oyadır. Xalça Qazax qrupunun ənənəvi elementlərinə əsaslanaraq üçgönlü kompozisiya ilə yaradılmış bir sənət nümunəsidir. Əsasən zoğalı rəng fonunda hazırlanıb və üzərində müxtəlif formalı təsvirlər və çalarlar məqsədli şəkildə yerləşdirilmişdir. Kompozisiyanın quruluşu və elementlərin harmonik düzülüşü xalçanın estetik cəhətdən mükəmməl bir nümunə olmasını təmin edir. Onun mərkəzi bölməsi, yəni "xonça" adlanan hissədə, quş təsvirləri xüsusi yer tutur (2, 9). Mərkəzdə yerləşdirilən xonça ağ rəngdədir və bu, kompozisiyanın əsas diqqət nöqtəsini təşkil edir. Bununla yanaşı, nümunənin yuxarı və aşağı hissələrində yerləşdirilmiş xonçalar tünd rəng çalarlarında hazırlanıb və bu tünd tonlar xalçanın ümumi rəng palitrası ilə kontrast yaratmaqla dinamik və diqqətçəkən bir görünüş meydana gətirir.

Xalçanın kənar haşiyələri də özünəməxsus bəzək elementləri ilə bəzədilib. Əsas haşiyə ağ rəng fonunda qurulmuş və burada da quş təsvirlərinə yer verilib. Bu haşiyə dizaynı, mərkəzi xonçanın quşlu kompozisiyası ilə ahəngdarlıq yaradır, beləliklə, xalçada vahid bir mövzu və kompozisiya anlayışı müşahidə olunur. Bundan əlavə, bala haşiyələrdə istifadə olunan zəncirə və mollabaşı adlanan ənənəvi ornamentlər xalçanın dekorativ aspektini daha da zənginləşdirir. Azərbaycan xalçalarında "zəncirə" elementi ənənəvi dekorativ naxışlardan biridir və xalça haşiyələrinin vacib bəzək motivi kimi geniş istifadə olunur. Bu element, xalçanın əsas sahəsi ilə kənar haşiyələri arasında keçid yaratmaq üçün işlənən, ritmik təkrarlanan bir naxış formasıdır. "Zəncirə" sözü öz adını zəncirə oxşayan ardıcıl, bir-birinə bağlı və ya əlaqəli motivlərdən alır. Bu motivlər simmetrik və ritmik şəkildə təkrarlanaraq xalçanın haşiyəsində davamlı bir axıcılıq və ritm yaradır. Zəncirə ornamentlərinin əsas funksiyası xalça kompozisiyasında harmoniya yaratmaq və ara sahə ilə haşiyə arasında balansı təmin etməkdir. Zəncirə motivləri sadə və ya mürəkkəb formalarda ola bilər və bəzən digər dekorativ elementlərlə, məsələn, butalar və ya geometrik fiqurlarla birlikdə istifadə olunur. Əsasən zəncirə motivləri xalçanın daha zərif görünməsi və kənarlarla mərkəzi sahə arasında üzvi bir keçid yaratmaq üçün istifadə edilir.

Bu element Azərbaycan xalçaçılığının bir çox bölgəsində, xüsusilə Qazax, Qarabağ, Gəncə və Bakı xalça məktəblərində tez-tez rast gəlinir. Hər bir bölgə özünəməxsus üslub və rəng palitrası ilə bu elementi işləyir, lakin ümumi olaraq zəncirə elementi xalçaların estetik və simvolik dəyərini artırmaq üçün istifadə edilir (3, 5).

Qeyd olunan "Quşlu" adlı xalçada da zəncirə ornamentləri onun haşiyələrində təkrar olunan bir ritm yaratmış və mollabaşı motivləri isə xalçanın ənənəvi bəzək elementlərini vurğulayır.

Ümumilikdə, "Quşlu" xalçası ənənəvi Qazax üslubunun əsas xüsusiyyətlərini müasir bir yanaşma ilə birləşdirərək gözəl və harmonik bir sənət əsərini meydana çıxartmışdır. Rənglərin, formaların və simvolların bu cür məqsədli və incə şəkildə yerləşdirilməsi xalçanın bədii dəyərini artırır və onu ənənəvi Azərbaycan xalçaçılığının kamil bir nümunəsinə çevirir.

Azərbaycan xalçaları eyni zamanda xalqın həyat tərzini, inanclarını və dəyərlərini əks etdirən simvolizmlə zəngindir. Bu simvolizm müasir xalçalarda da öz yerini tapır. Məsələn, xalçalarda ailə, birlik, məhsuldarlıq və təbiətə hörmət kimi anlayışlar əks olunur. Müasir xalçalar, ənənəvi xalçaların zərif və simmetrik bəzək elementlərini təkrar edir. Ornamentlərin mürəkkəbliyi, onların xalçada harmonik şəkildə yerləşdirilməsi, ənənəvi estetik prinsiplərin qorunmasına xidmət edir.

Günümüzdə rəssamlar tərəfindən yaradılan xalçaların təhlilinə əsasən qeyd etmək olar ki, ənənəvi motivlər yenidən düşünülür, bəzən daha sadə və ya qeyri-adi rəng palitralarında təqdim olunur, bəzən isə tamamilə yeni formalarla meydana çıxırlar. Hətta xalçalar təkcə dekorativ funksiyası ilə deyil, həm də hekayə danışma vasitəsi kimi qəbul edilir. Məsələn, müasir xalçalarda tarixə, mədəniyyətə, müharibə və ya sosial mövzulara dair konseptual yanaşmalar nümayiş etdirilir (4, 12).

**Nəticə.** Müasir Azərbaycan xalçalarında bu iki yanaşmanın – yəni ənənəvilik və konseptuallığın harmoniyası xalçanı yalnız keçmişə bağlı bir sənət əsəri kimi deyil, həm də dinamik bir mədəniyyətin ifadəsi kimi görməyə imkan yaradır. Müasir Azərbaycan xalçalarında ənənəvilik, xalça sənətinin dərin köklərini qoruyaraq, milli mədəniyyətin və tarixinin əsas simvollarını yaşatmaqla ifadə olunur. Bu xalçalar hələ də tarixi xalçaçılıq məktəblərinin, xüsusən Qarabağ, Şirvan, Quba, Qazax, Təbriz kimi bölgələrin təsiri altında inkişaf edir. Ənənəvilik xalçalarda bir çox cəhətdən özünü göstərir.

Onu da qeyd edək ki, ənənəvi xalça toxuma texnologiyaları, əl ilə toxuma üsulları hələ də geniş tətbiq edilir. Müasir Azərbaycan xalçalarında ənənəvilik, xalça sənətinin dərin köklərini qoruyaraq, milli mədəniyyətin və tarixinin əsas simvollarını yaşatmaqla ifadə olunur. Bu xalçalar hələ də tarixi xalçaçılıq məktəblərinin, xüsusən Qarabağ, Şirvan, Quba, Qazax, Təbriz kimi bölgələrin təsiri altında inkişaf edir.

## ƏDƏBİYYAT

1. Camalqızı G. Xalçaçılıq sənətinin gözəlliyi və sirləri: Xalçalarda nəsillərin bir-birinə ötürdüyü kodlaşmış ornamentlər, xalqın təfəkkürü və tarixi gizlənir //Ekran-efir.- 2012.- 16 noyabr.- S. 27.

2. Əliyev V. Azərbaycan xalçası xalqımızın milli dəyəri, sərvətidir: [Quba Xalçaçılıq İstehsalat Birliyinin direktoru Humayə Məmmədovanın fikirləri] //Xalq qəzeti.- 2014.- 13 dekabr.- S.9.

3. Nərimanoğlu M. Xalcacılıq ənənələri yaşadılır [Mətn]: [Azərbaycan Xalcası və Xalq Tətbiqi Sənəti Dovlət Muzeyində kecirilən "Azərbaycan xalcacılıq ənənələri muzey təhsilində" adlı ikigunluk seminar haqqında] /M.Nərimanoğlu //Azərbaycan.- 2011.- 13 yanvar.- S.5.

4. Vahid T. Azərbaycan xalçaçılıq ənənələri muzey təhsilində [Mətn]: [L.Kərimov adına Azərbaycan Xalcası və Xalq Tətbiqi Sənəti Dovlət Muzeyində eyni adlı təlim-seminar kecirilmişdir] /T.Vahid //Mədəniyyət.- 2011.- 16 fevral.- S.4; Səs.- 2011.- 15 fevral.- S.12.

***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının doktorantı**
***E-mail: mahizar.maharramova@mail.ru***

**Mahizar Maharramova**

## CONCEPTUALİTY İN MODERN AZERBAİJANİ CARPETS

The newly created Azerbaijani carpets, combining traditional elements with modern forms, show loyalty to the past and continue their development in accordance with the aesthetic concepts of nowadays. The traditional Azerbaijani carpets have a long history and contain symbolism, motifs and weaving technologies formed over millennia. These carpets typically display motifs based on geographic regions, elements of nature, cultural symbols and religious themes. The carpet weaving centers such as Karabakh, Guba, Shirvan and Gazakh are known for their various technical features and ornaments. Modern Azerbaijani carpets are the area based on traditional crafts, along with which the art of the modern era, visual aesthetic values, experience and craftsmanship are combined. These carpets preserve both ancient traditions and reflect conceptual approaches that meet the demands and challenges of the modern era. In these carpets, conceptuality is manifested in several ways. Traditional motifs are refreshed in modern carpets. We know that traditional carpets are rich in motifs, patterns, ornaments and abstract elements. In the modern era, the above-mentioned points are presented in more different forms, in an updated form. In addition, except the traditional yarns, innovations in materials and techniques are also beginning to be applied to carpet art. In modern times, carpets are not only an aesthetic item, but also a carrier of many deep and meaningful information. The conceptual approach to carpet art ensures that this art meets the requirements of the contemporary era and receives worldwide recognition.

**Keywords:** *carpet, decoration, element, traditionalism, conceptuality, etc.*

**Махизар Магеррамова**

## КОНЦЕПТУАЛИЗМ В СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ КОВРАХ

Современные азербайджанские ковры, объединяя традиционные элементы с современными формами, с одной стороны, демонстрируют верность прошлому, а с другой — продолжают своё развитие в соответствии с эстетическими представлениями нашего времени. Традиционные азербайджанские ковры имеют долгую историю и включают в себя символику, мотивы и технологии ткачества, формировавшиеся на протяжении тысячелетий.

Эти ковры, как правило, демонстрируют мотивы, основанные на географических регионах, элементах природы, культурных символах и религиозных темах. Такие ковровые центры, как Карабах, Губа, Ширван и Газах, известны своими техническими особенностями и орнаментами. Современные азербайджанские ковры — это область, основанная на традиционном мастерстве, в которой переплетаются современное искусство, визуальные эстетические ценности, опыт и ремесленничество. В этих коврах с одной стороны сохраняются древние традиции, а с другой — находят отражение концептуальные подходы, отвечающие требованиям и вызовам современности. Концептуализм в коврах проявляется в нескольких аспектах. В современных коврах традиционные мотивы обновляются. Мы знаем, что традиционные ковры богаты мотивами, узорами, орнаментами и абстрактными элементами. В современную эпоху все эти элементы представляются в новых формах, в обновлённом виде. Кроме того, помимо традиционных нитей, в ковроткачество начинают внедряться новые материалы и техники. Сегодня ковры становятся не только предметами эстетического значения, но и носителями глубоких и содержательных смыслов. Концептуальный подход в ковроткачестве обеспечивает соответствие этого искусства требованиям современного времени и способствует его признанию на мировом уровне.

**Ключевые слова:** *ковер, орнамент, элемент, традиционность, концептуализм и др.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**